# Həzin könül pıçıltıları

**Mən ömrümdə cəmi 2 Həzi tanımışam. Biri 2 dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanov olub, onu qiyabi tanıyıb sevmişəm. Biri də əyani surətdə tanıdığım söz cəbhəsinin savaşçısı şair Həzi Həsənlidir ki, universitetin qiyabi şöbəsində tələbə yoldaşım olub, yaradıcılığına sevgilərlə yanaşdığım dostumdur.**

Bir vaxt Həzinin "Siz, ey sevdiklərim..." kitabı haqqında "Həzinin həzin şeirləri" adlı qeydlərimi qələmə almışdım. İndi isə onun yenicə çapdan çıxmış "Kövrək könül pıçıltıları" adlı kitabı qarşımdadır. Görürəm ki, elə həmin Həzidir: sözə, saza, sənətə sədaqətli, özünə, könlünün söz közünə tələbkar. Artırıb ki, əskiltməyib.

**Şeiri saz üstündə yaz,**
**Açıq qalsın pəncərə...**
**Həzin-həzin ötər saz,**
**Yorğun ruhum dincələr.**

Belə avtobioqrafik "tablo"nu yalnız söz rəssamı olan, süni boyalardan qaçan şairlər yarada bilər. Kitabı oxuduqca şairin könül pıçıltıları davam edir. Görürsən ki, "tablo" süjetlidir: quşlar pəncərədən içəri doluşdu, su içdi, dən yedi. Şair quşüzümü alıb çay da dəmlədi...

Həzinin şeirlərini oxuyanda, doğrudan da, adamın ruhu dincəlir. Onu artıq 45 ildir ki, tanıyıram. Jurnalistika fakültəsinə birgə daxil olduğumuz vaxtdan. Görüşdüyümüz yay və qış sessiyalarında arabir şeirləşər, gənclik duyğularımızı paylaşardıq: mən idim, o idi, Rasim idi, Nurəddin idi, rəhmətliklər İsmayıl və Fəxrəddin idi... Sonra həm cismani, həm də yaradıcı baxımdan seyrəlməyə başladıq. İndi Həzi kimi sözə, poeziyaya vurğun adam azdır. Çünki rəhmətlik Məmməd Nazimoğlu demişkən, Həzi Həsənli şeirə ana südü kimi baxır və ona haram qatmaq niyyəti yoxdur. "Qardaşım Həzi Yenisey çöllərindən, Altayın ətəklərindən iz alıb gələn bir cığırla yol tutub getməkdədir".

Bu yaxınlarda dünyasını dəyişmiş filoloq İlham Abbasov isə yazıb: "İşıq əlifbası" kitabında Həzi Həsənli Fikrət Mursaqulovun portretini bədii obraz səviyyəsində yaratmağa müvəffəq olmuşdur. Bunu təmin edən birinci amil səmimiliyi, duyğu və düşüncələrinin ifadəsində təbiiliyi qoruya bilməsidir".

Həzi təzə kitabını mənə bir ay əvvəl hədiyyə edib. Sadəcə, düşündüm ki, qoy, təəssüratlarımı doğum günü ərəfəsində yazım ki, bu da mənim ona hədiyyəm olsun. Filologiya elmləri doktoru İslam Sadığın kitaba yazdığı "Ön söz"ü, şair-publisist Əbülfət Mədətoğlunun və Ağacəfər Həsənlinin resenziyalarını oxudum, qələm dostumun yaradıcılığına yüksək dəyər vermələrindən yetərincə məmnun qaldım. Ağacəfər doğru yazır ki, hər yaxşı kitabın geniş təhlilə, ədəbi tənqidin süzgəcindən keçməyə haqqı var, Həzi Həsənlinin yeni şeir toplusunun da eləcə.

Bu kitabdan iki həftə öncə Azər Turan "Ədəbiyyat qəzeti"ndə Həzinin bir səhifəlik şeirlərini vermişdi. Onları da maraqla oxuyub xeyli təsirlənmişdim. İndi də daha geniş diapazonda şair dostumun son yaradıcılıq uğurları ilə tanış oldum. Onun aforizm kimi yadda qalan misraları, "Xankəndim – Cankəndim" kimi deyimləri az deyil.

**Can demişik şəhid verən millətə,**
**Can dözərmi haqsızlığa, zillətə?**
**Güvənmişik qanımızda qeyrətə,**
**And içmişik bu bayrağa, ey Vətən!**

Böyük Zəfərdən sonra Qarabağa yollanan dostuna şair ismarıclar verməyi də özünə borc bilir. Üzünü ona tutub deyir:

**Ürəyində Şuşa boyda həsrətin,**
**Bircə dəfə görmək olsa qismətin,**
**Xarıbülbül – çiçək bacın, ismətin,**
**Çiçəklərin üzlərindən öpərsən...**
**Nə vaxt getsən Qarabağa, birinci**
**Şəhidlərin izlərindən öpərsən...**

Onun şeirlərinin dili axıcı, sözləri canlı, fikirləri aydındır. Kəlmələrin məna çalarlarını bütün incəliklərinə qədər bilib, ifadə etməkdə heç bir çətinlik çəkmir. Məsələn, bir şeirində rədif kimi götürdüyü "düşüncə" sözü bəndlərin sonunda nə az-nə çox, düz beş mənada işlənib.

Həzi təbiət aşiqidir. Tez-tez əsrarəngiz bölgələrə, uzaq ölkələrə səfərlər edib təbiətlə bağrıbadaş olur. Oralarda da şairliyi tutur:




**Gəlmişəm təbiət səyahətinə,**
**Tənha ağacların ziyarətinə, – deyir.**

Bəs, niyə tənha ağaclar? Şairə görə, çünki onlar qardaşdan, sirdaşdan kimsəsi olmayan, ildırım qorxusu olan ağaclardır. Amma Həzi bu ağacların təkliyi görk etməsini, tərk etməsini də istəmir. Çünki "qisməti var qəribin də". Tənhalar İlahidən təklənibsə, şair onların gündoğandan-günbatana bakirə duyğularla yüklənməsini istəyir.

Şair dostum bədii detallardan yerli-yerində istifadə etməkdə, obrazlarla düşünməkdə də mahirdir. Məsələn, "Qatar" şeirində həsrəti, görün, necə təsvir edir:

**Səni bir yaz günü aparan qatar**
**Balanı anadan ayırdı, getdi.**
**Cəhrətək fırlanan o dəmir təkər**
**Ananı düyçətək əyirdi, getdi...**
**Sən getdin, o qərib arzularınla**
**Ananı yaxıla-yaxıla qoydun.**
**Yaşadı həsrətin, intizarınla,**
**Şəklini böyüdüb daxıla qoydu...**

Həzi Həsənlinin "Kövrək könül pıçıltıları" kitabının da oxucuların könlünə yol tapacağına inanırıq.

***Əli NƏCƏFXANLI***
***XQ***